**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**ƏMR**

№ Ü/093

**Bakı şəhəri** "30" 06 2020 il

**"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrasının təmin edilməsi haqqında**

"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamının icrası ilə bağlı Agentliyin fəaliyyət istiqamətlərində açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqinin daha da genişləndirilməsi, maliyyə və şəffaflığın yüksəldilməsi, informasiya əldə etmək hüquqlarının təminatı vasitələrinin artırılması, vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və ictimai nəzarətin gücləndirilməsi, açıq hökumətin təşviqi ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM**

**1.** "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrası məqsədilə, Agentlik Aparatının Starateji təhlil və planlaşdırma sektoru illik iş planını 1 (bir) ay ərzində hazırlasın və təsdiq edilməsi üçün rəhbərliyə təqdim etsin.

**2.** Agentlik Aparatının aidiyyəti struktur bölmələri bu əmrin birinci bəndində göstərilən illik iş planının hazırlanması ilə bağlı təkliflərini 20 (iyirmi) gün müddətində Strateji təhlil və planlaşdırma sektoruna təqdim etsinlər.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi **(Mansur Piriyev)** və Qeydiyyat və sahibkarlarla iş şöbəsi **(Orxan Mikayıl)** Agentliyin fəaliyyətində ictimai iştirakçılığın təmin edilməsi məqsədilə, müvafiq İctimai şuranın yaradılması ilə bağlı "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn tədbirləri həyata keçirsin.

**4.** Agentlik Aparatının Strateji təhlil və planlaşdırma sektoru aidiyyəti struktur bölmələrindən alınmış iş planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə məlumatlar əsasında illik hesabatı hər il dekabrın 30-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim etsin.

**5.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinə **(Elşad Cəbrayılov) tapşırılsın:**

5.1. Agentliyin fəaliyyət istiqamətləri üzrə hazırlanmış normativ hüquqi akt layihələrini Agentliyin rəsmi internet saytında və "Lisenziyalar və icazələr" portalında yerləşdirmək üçün İnformasiya təminatı və innovativ həllər şöbəsinə **(Mansur Piriyev)** təqdim etsin.

5.2. Agentlyin aidiyyəti struktur bölmələri tərəfindən hazırlanmış normativ hüquqi akt layihələrində dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə, həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi ilə bağlı müddəaların əks olunmasını təmin etsin.

5.3. Bu əmrin surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

**6.** Bu əmrin icrasına nəzarət Agentliyin sədr müavini **Balarəhim Quliyevə** (3-cü bəndə münasibətdə ), Agentlik Aparatının rəhbəri **Zəkiyyə Mustafayevaya** (5-ci bəndə münasibətdə) və Agentlik sədrinin müşaviri **Elxan Mikayılova** (1-ci və 4-cü bəndə münasibətdə) həvalə edilsin.

**Əsas:** "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı.

**Sədr** **Qoşqar Təhməzli**